BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2010

# LOZAN KONFRANSINDA SURİYA SƏRHƏDİ MƏSƏLƏSİ

**M.B.FƏTƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***fataliyev@rambler.ru***

*Suriya – Türkiyə sərhədi məsələsi 1921-ci il oktyabrın 20-də Türkiyə ilə Fransa arasında imzalanan Ankara sazişi ilə həll edilmişdi. Lakin bu saziş Fransa parlamenti tərəfindən təsdiq edilməmişdi. Buna görə həmin məsələ yenidən Lozan konfransında qaldırıldı. Suriya sərhədi məsələsi Lozan konfransında ilk dəfə 1923-cü il aprelin 24-də müzakirə olundu. Müzakirələr xeyli müddət davam etdirildi. Lakin axırda tərəflər razılığa gəldilər ki, Suriya-Türkiyə sərhədi məsələsi 1921-ci il Ankara sazişi əsasında müəyyənləşdirilsin. Lakin Suriya sərhədi məsələsi Lozan konfransında da qəti surətdə həll edilmədi. 1926-cı il mayın 30-da Türkiyə ilə Fransa arasında dostluq və xeyirxah qonşuluq haqqında konvensiya bağlandı. Bu konvensiya "Suriya-Türkiyə sərhədi" məsələsini qəti olaraq müəyyənləşdirdi.*

Suriya sərhədi məsələsi 1921-ci il oktyabrın 20-də Türkiyə Böyük Millət Məclisi hökuməti ilə Fransa hökuməti arasında imzalanan Ankara sazişində müəyyən edilmişdi. Halbuki Ankara sazişi Fransanın Türkiyəni tanıdığını özündə əks etdirmirdi. Həmçinin bu saziş Fransa parlamentində müzakirə edilməmiş və təsdiq olunmamışdı (5, 337). Mustafa Kamal bu saziş barəsində belə demişdi: "... Franklin Buyon ilə mühüm və ikinci dərəcəli məsələlər üzərində günlərcə görüşdük. Nəticə olaraq bir-birimizə fikirlərimizə, hisslərimizə, məsələləri anlamaq müyəssər oldu. Fəqət Fransa hökuməti ilə Türk Milli hökuməti arasında qəti saziş nöqtələri təsbit edə bilmək üçün bir az zamanın keçməsi zəruri oldu" (6, 423 - 424).

O zaman fransız hökumətində nazir belə olmayan, sadəcə bir millət vəkili Franklin Buyon tərəfindən imzalanan bu sənəd sülh müqaviləsi mahiyyətini daşıya bilməzdi. Çünki hər şeydən öncə, Fransa Türkiyə ilə İngiltərədən ayrılıqda bir sülh müqaviləsi imzalayacaq bir vəziyyətdə deyildi. İngiltərə xarici işlər naziri Lord Kerzonun 1921-ci il 25 noyabr tarixli notasında deyilirdi: "Saziş bir sülh müqaviləsi deyildir və Ankara hökumətinin nə hüquqi, nə də felən tanınmasını zəruri etmir və Fransanın müttəfiqləri və bilavasitə ingilislərlə sıx bir anlaşma olmadıqca Türkiyə ilə sülh müqabiləsi yoluna gedə bilməz" (5, 337). Fransa da cavab notasında bu fikri təsdiq etmişdi.

Buna görə Türkiyə Suriya sərhədi məsələsini Lozan konfransında qaldırmalı oldu. Konfransın birinci mərhələsində Suriya sərhədi ilə bağlı mühüm bir müzakirə keçirilmədi. Lakin konfransın birinci mərhələsinin sonunda müttəfiq dövlətlərin Türkiyə nümayəndə heyətinə təqdim etdikləri müqavilə layihəsinin üçüncü maddəsində yazılmışdı: "Aralıq dənizindən İran sərhədlərinə qədər Türkiyənin sərhədləri aşağıdakı kimi müəyyən edilmişdir: "1. Suriya ilə: 1921-ci il oktyabrın 20-də imzalanan Türkiyə - Fransa sazişinin 8-ci maddəsində yazılmış məlum sərhədlər (3, 214). "İskəndərun körfəzi üzərində Payas rayonunun cənubunda olmaq üzrə seçiləcək bir

nöqtədən başlayacaq və yaxınlığından Ekbez meydanına doğru gedəcəkdir (Qatar stansiyası və bu rayon Suriyada qalacaqdır). Sərhəd cizgisi oradan Marsuva rayonu Suriyada və Karnaba rayonu ilə Kilis şəhəri isə Türkiyədə qalmaq üzrə cənub-şərqə doğru qıvrılacaqdır. Oradan Çobanbəy stansiyasında dəmir yolu ilə birləşəcəkdir. Bundan sonra Bağdad dəmir yolunu izləyəcək və dəmir yolunun platforması Nusaybinə qədər türk torpağı üzərində qalacaqdır. Oradan Nusaybin ilə Ceziren İbn Ömər arasındakı köhnə yolu izləyərək Cezireyi İbni Ömərdə Dəcləyə qovuşacaqdır. Nusaybin və Cezireyi İbn Ömər rayonları ilə yol Türkiyədə qalacaqdır. Bu yoldan yararlanmada hər iki ölkə ayrı haqlara sahib olacaqlar. Çobanbəy və Nusaybin arasındakı dəmir yolunun stansiyası və stansiya dayanacaqları dəmir yolu platformasının hissələri sayıldığından Türkiyədə qalacaqdır" (2, 140).

Lozan konfransına fasilə verildikdən sonra İsmət paşa 1923-cü il martın 8-də müttəfiq dövlətlərə göndərdiyi məktubda Suriya ilə sərhədlə bağlı maddənin birinci hissəsinin dəyişdirilərək belə yazılmasını təklif etdi: "Bütün əlavələri ilə birlikdə qüvvədə qalan 1921-ci il 20 oktyabr tarixli türk – fransız sazişinin 8-ci maddəsi ilə müəyyən edilmiş sərhədlər..."(7, 29). Mütəffiq dövlətlər İsmət paşanın təklifini qəbul etdilər.

Konfransın ikinci mərhələsi başladıqdan sonra Suriya sərhədi məsələsi 1923-cü il aprelin 24-də keçirilən toplantıda müzakirə edildi (3, 215).

Fransız nümayəndəsi general Pelle bildirdi ki, "Fransa hökuməti 1921-ci il 20 oktyabr tarixli Türkiyə- Fransa sazişinin 8-ci maddəsi ilə müəyyən olunmuş sərhəd" sözlərinə "bütün əlavələri ilə birlikdə tam olaraq qüvvədə qalan" kəlmələrinin əlavə edilməsini irəli sürən türk dəyişiklik təklifini qəbul edə bilməz. Doğrudan da, 1921-ci il 20 oktyabr tarixli saziş mandat altında olan Suriya ölkəsini təmsil edən Fransa ilə Türkiyə arasında imzalanan bir qonşuluq sazişidir. Bu saziş mətnindən də məlum olduğu kimi, məhəlli bir sazişdir. Fransa bu sazişi tamamilə həyata keçirmişdir və bu sazişə uyğun olaraq davranmaq niyyətindədir. Bu da məlumdur ki, həmin məsələ Fransa ilə Türkiyə arasında qalan bir işdir. Səkkiz dövlət arasında bağlanmış olan bir sazişlə Ankara sazişinin doğrulanması, onun mahiyyətini dəyişdirə bilər. Çünki Ankara sazişində edilə biləcək hər hansı dəyişiklik bu səkkiz dövlətin razılığı ilə bağlı olacaqdır. Bu isə lokal bir tənzimləmə məsələsidir və bu tənzimləməni öz aralarında razılaşaraq dəyişdirməkdə hər iki tərəfin marağı vardır" (8, 8).

İsmət paşa general Pelleyə cavab olaraq bildirdi ki, Türkiyə nümayəndə heyəti yeni bir təklif irəli sürmür. Biz ancaq mətnə gərəkli bir açıqlamanın əlavə edilməsini istəyirik. Ankara sazişi qüvvədə olduğuna görə və Pellenin də söylədiyi kimi, qüvvədə qalması lazım gəldiyinə görə Türkiyə nümayəndə heyəti bu nöqtənin sazişlə (sülh sazişi ilə) müəyyən edilməsini istəyir. Ankara sazişi nə Türkiyə Böyük Millət Məclisi, nə də Fransa parlamentində təsdiq edilmişdir. Bir çox dövlətlərə görə təsdiq ediləcək bir sazişə Ankara sazişinin yalnız müəyyən bir maddəsinin göz önündə tutulması bu maddəni gücləndirdiyi halda, eyni sazişin digər hökmlərinin dəyərini azaldacaqdır. Fransız hökuməti Ankara sazişinə etiraz etmədiyi halda, bunu nə üçün söyləmir" (1, 228).

General Pelle bildirdi ki, "Fransa öz maraqları naminə götürdüyü öhdəliklər arasında fərq qoymur. Fransa hökuməti tərəfindən konstitusiya çərçivəsində götürdüyü öhdəliklərin hamısı bərabər dəyərdədir və onların hamısının həyata keçirilməsi zəruridir. Digər tərəfdən, doğrudan da, Fransa ilə Türkiyəni maraqlandıran bir sazişə sülh sazişini imzalayacaq dövlətlər razı olmazlarsa belə, artıq bu saziş dəyişdirilə bilməz" (8, 8-9).

Pelle həm də 8-ci maddəyə əlavə edilən sözlərin lüzumsuz olduğunu bildirdi.

İsmət paşa qeyd etdi ki, müşahidələr bütöv bir vahiddir və sərhədləri müəyyən edən maddə isə onun bir parçasıdır. Bunun isə Türkiyə ilə Fransa arasında sülhə təməl olacağına görə təsdiq edilməsi lazımdır. İsmət paşa həm də qeyd etdi ki, onun sazişin təsdiq edilməmiş olduğu haqqındakı sözləri cavabsız qaldı (3, 215).

General Pelle Türkiyə nümayəndə heyətinin Suriya sərhədini müəyyən edən Türkiyə-Fransa sazişinin bütün dövlətlər tərəfindən imzalanmasından danışarkən bildirdi ki, İraq sərhədinin Türkiyə ilə İngiltərə arasında ayrı bir sazişlə müəyyən edilməsinin təklif olunmasını anlaya bilmir. Burada bir ziddiyyət var, çünki hər iki vəziyyət bir-birinə bərabərdir, yəni Fransa ilə Türkiyə arasındakı saziş Suriya sərhədlərini müəyyənləşdirdiyi halda, İngiltərə ilə Türkiyə arasında saziş də İraqla sərhədləri müəyyənləşdirəcəkdir. Belə olduqda sülh müqaviləsinə Fransa ilə Türkiyəni maraqlandıran hökmləri qoymağa səbəb yoxdur. Türkiyə ilə Fransa arasında imzalanan sazişin fransız parlamentində təsdiq edilməməsinə gəlincə, bildirmək istərdim ki, konstitusiyada buna ehtiyac olmadığı göstərilmişdir (8, 9).

İtaliya nümayəndəsi M.Montaqna bildirdi ki, Ankara sazişində müəyyən olunmuş məsələlərin olduğu kimi sazişə (sülh sazişinə) qoyulması lazımsız görünür. İsmət paşanın təklif etdiyi mətn 8-ci maddənin mahiyyətini xeyli aşıb keçir. Bu mətin başqa dövlətləri özlərini maraqlandırmayan məsələlər barədə öhdəliklər götürməyə sövq edir. Belə olduqda 1921-ci il 20 oktyabr tarixli sazişdən heç bir söz etmədən müzakirə mövzusu olan maddəyə Türkiyə Suriya sərhədinin tanınmasını 8-ci maddədə göstərildiyi kimi qoymaq kifayətdir (8, 9).

İngiltərə nümayəndəsi H.Rembold da Fransa və İtaliya nümayəndələrinin irəli sürdükləri təklifə razı olduğunu bildirdi.

İsmət paşa bildirdi ki, Ankara sazişi Türkiyə ilə Fransa arasında sülhün təməlidir. Əgər bu sərhəd başqa dövlətləri də əlaqələndirirsə, sazişin digər maddələrini də əlaqələndirməlidir (3, 216).

General Pelle Montaqnanın çox açıq olan nitqinə toxunaraq bildirdi ki, sərhədin müəyyən edilməsi bütün dövlətləri maraqlandırır. Buna görə sülh müqaviləsində bundan söz edilməlidir, halbuki 1921-ci il 20 oktyabr tarixli sazişin digər hökmləri yalnız Fransa ilə Türkiyəni maraqlandırır. Fransa baxımından olduğu kimi, Türkiyə baxımından da bu hökmlərin bütün dövlətlərin razılığı olmadan dəyişdirilməsində çətinliklər vardır. Digər tərəfdən, bu dövlətlər yalnız Fransa ilə Türkiyəni maraqlandıran məsələlərdə öhdəliklər götürmək istəmədiklərini açıqladılar. Buna görə türk nümayəndə heyətinin inadkarlığı haqlı görünmür (8, 10).

İsmət paşa yenidən Ankara sazişinin bütöv bir vahid olduğunu diqqətə çatdırsa da, general Pelle digər dövlətlərin yalnız Fransa və Türkiyəni maraqlandıran hökmləri təsdiq etmək niyyətində olmadıqlarını bildirdi. General Pelle onu da qeyd etdi ki, o bu məsələni İsmət paşa ilə müzakirə etməyə də hazırdır, ancaq bu məsələnin indiki müzakirələrdə heç bir yeri yoxdur (8, 10).

Toplantının sonunda H.Rembold müzakirələri yekunlaşdıraraq M.Montaqnanın irəli sürdüyü fikirlərə qoşulduğunu bildirdi. O, qeyd etdi ki, türk nümayəndə heyəti iki seçim arasında durur. Onlar ya M.Pellenin protokollara keçiriləcək olan sözlərini öhdəlik saymalı və müttəfiq dövlətlərin irəli sürdüyü mətni qəbul etməli, ya da müttəfiq dövlətlərin mətni yerinə Ankara sazişinin 8-ci maddəsində olduğu kimi, Türkiyə-Suriya sərhədinin tanınmasını sülh müqaviləsinə əlavə etməlidirlər. Lakin

İsmət paşa bu məsələnin təxirə salınmasını təklif etdi (8, 10).

1923-cü il iyun ayının 4-də keçirilən toplantıda sülh müqaviləsinin maddələri müzakirə edilərkən H.Rembold Suriya sərhədi ilə əlaqədar məsələni soruşdu, İsmət paşa da danışıqların davam etdiyini söylədi (3, 216).

1923-cü il iyunun 26-da keçirilən toplantıda general Pelle Türkiyə nümayəndə heyətinin sülh müqaviləsinin 3-cü maddəsinə dəyişiklik etmək təklifini irəli sürdüyünü, 1921-ci il 20 oktyabr tarixli Ankara sazişi ilə əlavələrinin doğrulandığının müəyyən edilməsini tələb etdiyini xatırlatdı. O, qeyd etdi ki, "Fransa nümayəndə heyəti ilə türk nümayəndə heyəti arasındakı müzakirələrdən sonra, türk nümayəndə heyəti tələb etdiyindən imtina etməyi qəbul etmişdir. Maraqlı tərəflər arasında fransız hökuməti türk nümayəndə heyətinə bir məktub göndərəcək və bəyannamə elan edərək, sülh müqaviləsinin qüvvəyə minməsindən sonra, Ankara sazişinin və əlavələrinin, əvvəllər də olduğu kimi, eyni şərtlər içərisində qüvvədə qalacağını və bu sazişlə eyni dəyər və gücdə olacağının doğruldulması qərara alınmışdır" (8, 177-178).

İsmət paşa qeyd etdi ki, Ankara sazişinin bütün hökmləri və bütün əlavələri ilə doğrulanması fransız nümayəndə heyətinin türk nümayəndə heyətinə göndərəcəyi bir məktub və bir bəyannamə ilə türk və fransız nümayəndə heyətlərinin görüş birliyinə nail olacaqlarını təsdiq etdi. İsmət paşa həm də qeyd etdi ki, general Pellenin bir gədər bundan əvvəl söyləmiş olduğu sözləri öhdəlik hesab edir və Ankara sazişinin və əlavələrinin doğrulanmasını əldə etmək baxımından Türkiyə hökumətinin izlədiyi məqsədə nail olunduğundan, təklif etdiyi dəyişiklikdən imtina edir (8, 178).

Beləliklə, müzakirələrdən sonra sülh müqaviləsinin 3-cü maddəsinin müttəfiq dövlətlərin nümayəndə heyətlərinin Türkiyə nümayəndə heyətinə 1923-cü il yanvarın 31-də təqdim etdikləri sülh müqaviləsi layihəsində olduğu kimi saxlanılması qərara alındı (8, 178).

General Pelle Ankara sazişinin 7-ci maddəsinin hökmlərinə əsasən bu maddə ilə əlaqədar fransız nümayəndəsinin eyni tarixli məktubunun hökmlərinə və sözü gedən sazişin imza protokollarına bağlı olaraq 16-cı maddədə düzəldilməsi təklif olunan dəyişiklikliyin mətndən qeyd-şərtsiz çıxarılmasını, İskəndərun və Antakya bölgəsində qurulacaq xüsusi rejimlə bağlı hökmlərin və Türkiyə- Suriya sərhədinin hər iki tərəfində yerləşən bölgə ilə bağlı hökmlərin də çıxarılmış olması inamını anlatdı. Halbuki, 16-cı maddəyə türk nümayəndə heyətinin təklif etdiyi paraqrafın yerinə aşağıdakı paraqrafın qoyulması mümkündür: "Bu maddənin hökmləri Türkiyə ilə həmsərhəd olan ölkələr arasında qonşuluq vəziyyəti üzündən qərara alınmış, ya da qərara alınacaq olan xüsusi hökmlərə xələl gətirməz" (8, 178).

Beləliklə, Ankara sazişi ilə əlavələrinin, Antakya və İskəndərun bölgələrinə və sürülərin sərhədin bir tərəfindən o biri tərəfinə keçirilməsi, Küveyk suyunun bölüşülməsi, Hələbə lazım olan suyun təmin edilməsi və s. kimi sərhəddəki adətlərlə bağlı hökmlər həqiqətə çevriləcəkdir.

İsmət paşa general Pellenin sözlərini və açıqlamalarını öhdəlik sayaraq, sülh müqaviləsinin 16-cı maddəsində təklif olunan dəyişikliyi qəbul etdi (8, 178).

General Pelle 1923-cü il iyunun 26-da vəd etdiyi məktubu həmin il iyulun 24-də göndərdi.

Məktubda deyilirdi: "Lozan konfransında əlahəzrət dövlətlərə verdiyim təminatlara əlavə olaraq, bugünkü tarixli sülh müqaviləsinin, 1921-ci il 20 oktyabr tarixində Ankarada imza edilmiş olan fransız – türk sazişi hökmlərinə heç bir xələl ver-

məmiş olduğunu sizə ünvanlanan qapalı bəyannamə ilə gerçəkləşdirirəm.

Türkiyə Böyük Millət Məclisi hökumətinin bu sazişin bütün əlavələri ilə birlikdə tamamilə qüvvədə qaldığının gerçəkləşdirildiyini görmək yolundakı arzusunu şərəf duyduğum bəyannamə şübhə etmirəm ki, tamam təmin edəcəkdir" (9, 253).

Fransa bəyannaməsinin mətni isə belə idi: "Aşağıya imzasını qoyan Fransa hökuməti tərəfindən buna iznli olaraq, general İsmət paşa həzrətlərini inandırmaq istəyirəm ki, 1921-ci il 20 oktyabr tarixdə Ankarada imzalanan fransız – türk sazişi Fransa hökuməti tərəfindən bəyənilmiş, sazişin tamam qüvvədə olması üçün lazım olan təsdiq, məzkur hökumət tərəfindən edilmiş və bunun nəticəsi olaraq bu sənəd qüvvəyə minmişdir.

Belə bir gerçəyi də İsmət paşa həzrətlərinə çatdırmaq istəyirəm ki, Fransa hökumətinin nəzərində bu gün imza edilən sülh müqaviləsi 20 oktyabr tarixli fransız – türk sazişi hökmlərinə xələl verməmiş və bu saziş və əlavələri tamamilə qüvvədə qalmışdır" (9, 253 – 254).

Beləliklə, Suriya sərhədi məsələsi Lozan konfransında 1921-ci il oktyabrın 20-də Ankarada imzalanan Türkiyə - Fransa sazişinin hökmləri əsasında müəyyənləşdirildi. Lakin bəzi türk tarixçiləri Türkiyə - Suriya sərhədi ilə əlaqədar Lozan konfransında əldə edilən nəticələrdən narazılıq edirlər. Belə ki, Qədir Misiroğlu yazır: "... Bu sərhəd (Suriya ilə sərhəd nəzərdə tutulur ) indi də davam edən şəkli ilə çox anormaldır. Çünki dünyanın heç bir yerində dəmir yolunun sərhəd olaraq müəyyən edilməsi və təsdiq edilməsi görünməmişdir. Ancaq o zaman Ankara üçün bu qazanc məqbul göründü. Fəqət Lozana zəfər qazanan bir dövlət kimi getdiyimizdən daha çox tələb edib təmin etmək lazımdı. Bir halda ki, fransız siyasəti bu güzəştə daha çox öncə məcbur qalmışdı, zəfərdən sonra daha çox ərazi qoparmaq mümkündü. Üstəlik Nibilə qədər tələb edilməsi lazım gələn bu ərazi... Milli anda da daxil idi. İsmət paşa Lozanda bu barədə heç bir səy etməyərək, ancaq 1938-ci ildə xilas edilən Xatay və İskəndərun üçün belə bir tələb irəli sürməmişdir" (4, 282 – 283).

Suriya sərhədi məsələsi Lozan konfransı ilə başa çatmadı. Fransa Birinci Dünya müharibəsindən sonra İskəndərun sancaqlığı da daxil olmaqla Suriya üzərində öz nəzarətini yaratmışdı. Türkiyə ilə Suriya arasında sərhəd çəkilməmiş, demarkasiya xətti isə hər iki tərəfdən mübahisəli qalmışdı. 1926-cı ilin əvvəlində Ankarada Suriyanın baş komissarı de Juvenel tərəfindən aparılan danışıqlar isə ləng gedirdi. Yalnız 1926-cı il mayın 30-da Türkiyə ilə Fransa arasında Suriya və Livan rayonlarında dostluq və xeyirxah qonşuluq münasibətləri haqqında konvensiya bağlandı (11, 5). Konvensiyaya görə əgər tərəflərdən biri üçüncü dövlət tərəfindən hücuma məruz qalardısa, digər tərəf bitərəf qalmalı idi. Konvensiyada, həmçinin Türkiyə-Suriya sərhədlərini qəti olaraq müəyyənləşdirmək üçün komissiya yaradılması haqqında maddə var idi.

Nəhayət, 1939-cu il iyunun 23-də Türkiyə ilə Fransa arasında imzalanan sazişə görə İskəndərun sancaqlığı (Hatay) Türkiyəyə birləşdirildi (10, 132).

## ƏDƏBİYYAT

1. Ali Naci Karacan. Lozan Konferansı ve İsmet paşa. Ankara: 1993, 455 s.
2. Belgelerle Türkiye Cumhuriyetinin Uluslararası Temelleri. Lozan, Montrö. Türkiyenin komşularıyla imzaladığı başlıca belgeler (Suriye, İrak, İran, SSCB, Bulgaristan, Yunanistan, NATO, AET, Avrupa Konseyi, Kıbrıs, Ege, Adalar, Sevr tehlükesi. Levkoşe: 1987, 325 s.

3. Cemil Bilsel M. Lozan. İkinci cilt. Sosyal yayınlar, 1998, 704 s.
4. Kadir Mısıroğlu. Lozan Zafer mi, Hezimet mi? 2 cilddə. I cild. İstanbul: 1992, 503 s.
5. Kadir Mısıroğlu. Lozan Zafer mi, Hezimet mi? 2 cilddə. II cild. İstanbul: 1992, 397 s.
6. Kemal Atatürk. Nutuk. 1919 – 1927. Cümhuriyet Halk Partisinin 15 – 20 ekim 1927 tarihleri arasında toplanan İkinci Büyük Konferansinda Söylenmiştir. Atatürk Araştırma Merkezi, 1995, 638 s.
7. Lozan Barış Konferansı. Tutanaklar, Belgeler. Takım 2, cilt 1, kitab 2. Çeviren Seha L.Meray, Ankara: 1972, XII , 318 s.
8. Lozan Barış Konferansı. Tutanaklar, Belgeler, Takım 2, cilt 1, kitap 2, Çeviren Seha L. Meray, Ankara: 1973, XII , 318 s.
9. Lozan Barış Konferansı. Tutanaklar, Belgeler. Takım 2, cilt 1, kitab 1, Çeviren Seha L. Meray, Ankara: 1972, X, 338 s.
10. Olaylarla Türk Dış Politikası (1919 – 1995), Ankara: 1996, 730 s.
11. Ökçün A.G. A Guide to Turkish Treaties (1920 – 1964). Ankara: 1966, 423 s.

## ВОПРОС О СИРИЙСКО-ТУРЕЦКОЙ ГРАНИЦЕ НА ЛОЗАННСКОЙ КОНФЕРЕНЦИИ

**М.Б.ФАТАЛИЕВ**

### РЕЗЮМЕ

Вопрос о сирийско-турецкой границе был решен между Турцией и Францией 20 октября 1921 года. Но это соглашение не было ратифицировано во французском парламенте. Поэтому этот вопрос снова был обсужден 24 апреля 1923 года на Лозаннской конференции. Вопрос о Сирийской границе в Лозаннской конференции впервые был обсужден. Обсуждения очень долго продолжались, но в конце стороны пришли к соглашению, что вопрос о сирийско-турецкой границе должен определяться на основе положений Анкарского соглашения, заключенного 20 октября 1921 г. Вопрос о Сирийской границе не был окончательно решен Лозаннской конференцией. В 1926 году 30-го мая между Турцией и Францией была заключена конвенция о дружбе и добрососедстве в районах Сирии и Ливана. В этой конвенции была статья об окончательном определении границ между Сирией и Турцией.

## THE QUESTION ON SYRIAN-TURKISH BORDER AT LAUSANNE CONFERENCE

**M.B.FATALIYEV**

### SUMMARY

The question on Syrian-Turkish border was solved between Turkey and France on October 20, 1921. However, this agreement was not ratificatied in the French parliament. Therefore, the question was discussed on April 24, 1923 at Lausanne conference. The question on the Syrian border for the first time was discussed at Lausanne conference. The discussions proceeded very long, but in the end the parties came to the agreement that the question on Syria - Turkish border would be defined on the basis of the situations of Ankara agreement on October 20, 1921. The question on the Syrian border was not completely solved at Lausanne conference. On May 30, 1926 Turkey and France issued a convention on friendship and good neighbourhood relations in the areas of Syria and Lebanon. This convention included a clause about the final delimitation between Syria and Turkey.